


# COP29 ölkəmizin beynəlxalq imicini daha da yüksəldəcək



**Şahin SEYİDZADƏ,**
**Milli Məclisin deputatı.**

***BMT**-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası iqlim dəyişmələri ilə bağlı beynəlxalq səviyyədə ən böyük tədbirlərdən biridir. Bu konfransın ölkələr üzrə əhəmiyyəti çox böyükdür. Çünki dövlətlər burada iqlim dəyişmələrinə qarşı mübarizədə yeni öhdəliklər götürür və qlobal istiləşməni məhdudlaşdırmaq üçün tədbirlər planı hazırlayırlar.*

Qeyd edək ki, BMT-nin İqlim Dəyişmələri üzrə Tərəflərin Konfransı iqlim dəyişiklikləri ilə mübarizə məqsədi daşıyaraq qlobal səviyyədə atılacaq addımların müzakirə platformasıdır. Bu eyni zamanda ölkələrin özlərinə təsir edən iqlim risklərini azaldılması və adaptasiya strategiyaları hazırlamaları üçün vacibdir. Çünki bu tədbir ölkələr arasında beynəlxalq tərəfdaşlığı və əməkdaşlığı təşviq edir və bir qədər az inkişaf etmiş və ya iqlim risklərinə daha çox məruz qalan ölkələr beynəlxalq dəstək ala bilirlər.

Onu da qeyd edək ki, "yaşıl texnologiya"lara keçid istiqamətində COP29 həm də ölkələr üçün karbon emissiyalarının azaldılması və dayanıqlı iqtisadiyyat yaratmaq məqsədi daşıyır. Bu, Azərbaycan kimi böyük enerji resurslarına əsaslanan ölkələr üçün enerji sektorunda transformasiya imkanları yarada bilər.

Hər bir ölkə, o cümlədən Azərbaycan COP prosesində iştirak edərək öz iqlim strategiyalarını beynəlxalq platformada təqdim edir. Bu da öz növbəsində ölkələrin beynəlxalq iqlim siyasətində rolunu göstərir. Belə ki, hər bir ölkə üçün ayrılıqda beynəlxalq nüfuzu artırmaq və iqlim dəyişikliyinə qarşı qlobal səviyyədə töhfə vermək vacibdir.

COP29 cəmiyyətdə iqlim dəyişmələri və ekoloji problemlər haqqında maarifləndirmə səviyyəsini artıraraq vətəndaşların ekoloji problemlərə qarşı daha məsuliyyətli davranış sərgiləməsinə və ekoloji layihələrdə aktiv iştirak etməsinə səbəb olacaq. Həmçinin yerli icmaların və qeyri-hökumət təşkilatlarının iştirakı təşviq ediləcək, o cümlədən ölkəmizin həm ekoloji dayanıqlılığını artıracaq, həm də iqtisadi inkişafına və beynəlxalq mövqeyinə əhəmiyyətli töhfələr verəcək. Tədbir enerji istehsalında "yaşıl texnologiya"lara investisiyaları artırmaq və iqlim dəyişmələrinin təsirini azaltmaq baxımından mühüm əhəmiyyət daşıyır.

Müxtəlif ölkələr arasında dialoq və əməkdaşlıq üçün imkan yaradan bu tədbir, qlobal iqlim siyasətindəki irəliləyişləri müzakirə etmək üçün liderləri, ekspertləri və nümayəndələri bir araya gətirir. Həmçinin Azərbaycanın iqlim dəyişmələri ilə mübarizədəki təşəbbüslərini və investisiyalarını təqdim etmək, yerli və beynəlxalq ictimaiyyətlə münasibətləri gücləndirmək üçün imkan olacaq. Lakin həmişəki kimi, beynəlxalq tədbirlər öncəsi ölkəmiz siyasi təxribatlarla üzləşir. Bu cür təxribatlar müxtəlif yollarla həyata keçirilir.

Dezinformasiya yaymaq üçün müxtəlif media platformalarında yanlış məlumatlar yaymağa çalışan qüvvələr Azərbaycanın imicini zədələmək və ölkəmizdə COP29 konfransına hazırlıq prosesini zəifləməyə cəhd ediblər. Bu qüvvələr həm də siyasi tənqidlərə əl atmaqla, beynəlxalq təşkilatların və bəzi ölkələrin respublikamıza qarşı ədalətsiz mövqeyinin genişləndirilməsinə cəhd edirlər. Bu çirkin məqsədlərinə nail olmaq üçün xaricdə və daxildə fəaliyyət göstərən anti-Azərbaycan qrupları birləşdirməyə can atmaqla müxtəlif vasitələrlə konfrans öncəsi protestlər təşkil etməklə qüdrətli ölkəmizin imicini zədələməyə çalışırlar. Bu qüvvələrin məqsədi COP29 konfransı öncəsi siyasi təxribatların baş verməsinə nail olmaqla belə mühüm bir tədbirin ətrafında gərginlik yaratmaq və iştirakçı ölkələrin diqqətini yayındırmaqdır. Onlar güman edirlər ki, bu kimi təxribatlar müzakirələrin səmərəli keçməsinə, beynəlxalq əməkdaşlığa zərər verə bilər və iqlim məsələlərinin əhəmiyyətini kölgədə qoya bilər. Lakin bütün bunlara baxmayaraq, qüdrətli Azərbaycan dövləti növbəti dəfə ölkələri bir araya gətirəcək və bu da öz növbəsində respublikamızın beynəlxalq arenadakı nüfuzuna müsbət təsiri göstərəcək. ■

